Sentyabr 2017

# PwC Azerbaijan Times

## 25 saylı Buraxılış

### Buraxılışın əsas xəbərləri:

- **"İşçi Qrupunun təsis edilməsinə dair Protokolun təsdiqlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **"Ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətini təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı**
- **"Kredit Zəmanət Fondu" ASC-nin təsis edilməsi**
- **Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası**



Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi üzrə məsləhət xidmətləri, İdarəedici Direktor

Arif.guliyev@az.pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@az.pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova
aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *"İşçi Qrupunun təsis edilməsinə dair Protokolun təsdiqlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Fərman GUAM dövlətləri arasında azad ticarət zonasını təsis edən müqavilə tərəflərinin fəaliyyətlərini tənzimləyir. Protokolun icrası Nazirlər Kabinetinə tapşırılmışdır və Xarici İşlər Nazirliyi protokolun qüvvəyə minməsi üçün zəruri ölkədaxili prosedurların həyata keçirilməsi ilə bağlı GUAM dövlətlərinə məlumat verəcək.

### *"Ticarət nümayəndələrinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Fərmana əsasən, Azərbaycan Respublikasının xaricdəki səfirliklərində və konsulluqlarında ticarət nümayəndələri aparatları ("Aparatlar") təsis ediləcək. Ticarət nümayəndələri və onların aparatları İqtisadiyyat Nazirliyinin strukturunun bir hissəsi olacaq. Maliyyə Nazirliyi ilə razılaşdırmaqla İqtisadiyyat Nazirliyi ticarət nümayəndələrinin aparatının ştat cədvəlini və işçilərin sayını təsdiqləyəcək. İqtisadiyyat Nazirliyi ticarət nümayəndələrin aparatının texniki və maliyyə təminatını aparır. Nazirlər Kabineti aparatın əsasnaməsini və strukturunu təsdiqləməli və ticarət nümayəndələrinin aparatının inzibati işçilərinin əmək haqlarının gəlir vergisindən azad edilməsi barədə qanun layihəsini hazırlamalı və bir ay ərzində təqdim etməlidir.

### *"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətini təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Fərman İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin ("Agentlik") nizamnaməsini təsdiqləyir. Təsisçinin səlahiyyətlərinin həyata keçirilməsi Prezidentə və Agentliyə həvalə edilir. Prezidentin səlahiyyətlərinə Agentliyin nizamnamə fondunun təsis edilməsi, maliyyə hesabatlarının təsdiq olunması, icra orqanının yaradılması, onun səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, Agentliyin yenidən təşkili və ləğv edilməsi daxildir. Agentliyin səlahiyyətlərinə inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və strukturunun təsdiqi daxildir.

PwC Azerbaijan Times

25 saylı Buraxılış

## *"Kredit Zəmanət Fondu" ASC-nin təsis edilməsi*

"Kredit Zəmanət Fondu" ASC "Azərbaycan Respublikasında sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsinə dövlət dəstəyi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı əsasında təsis edilir. "Kredit Zəmanət Fondu" ASC-nin əsas məqsədi sahibkarların maliyyə resurslarına çıxış imkanlarının asanlaşdırılması, eləcə də biznes fəaliyyətinin stimullaşdırılması və maliyyə sahəsində risklərin bölüşdürülməsi əsasında paylaşdırılmasına əsasən kredit sisteminin formalaşdırılmasından ibarətdir. "Kredit Zəmanət Fondu" ASC sahibkarların müvəkkil banklarda manat ilə alınmış kreditləri sığortalayacaq hüquqi şəxsdir. "Kredit Zəmanət Fondunun" 7 üzvdən ibarət olan Müşahidə Şurası və İdarə Heyətinin təsis edilməsi planlaşdırılır. Həmçinin, Fərman 5 üzvdən ibarət İşçi Qrupunun təsis edilməsini nəzərdə tutur. İşçi Qrup "Kredit Zəmanət Fondu"nun nizamnaməsini, strukturunu, nizamnamə kapitalını, sahibkarların manat ilə alınmış kreditlərə zəmanət verilməsi üzrə ilkin prosedurları, kreditlər üzrə hesablanmış faiz dərəcələrinə subsidiyaların hesablanmasının ilkin qayda və prosedurları, kreditin qiymətləndirilməsi sistemini müəyyənləşdirən və risklərin azaldılması üzrə ilkin qayda və risklərin idarə edilməsi üzrə digər alətlərlə bağlı əlavə təklifləri bir ay ərzində Prezidentə təqdim edəcək.

## *Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza sertifikatının verilməsi Qaydası*

Qaydaya uyğun olaraq, elektron imza sertifikatını əldə etmək üçün qeyri-rezidentlər (xarici ölkədə yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, başqa ölkədə daimi yaşayan Azərbaycan vətəndaşları, xaricdə fəaliyyət göstərən hüquqi şəxslər) e-qeyri-rezident elektron portalına daxil olmalı, tələb olunan məlumatı portala əlavə etməlidir. 3 iş günü ərzində sistemdən heç bir mənfi cavab alınmadıqda, elektron sertifikat Azərbaycan Respublikasının xaricdəki müvafiq diplomatik nümayəndəliyinə və konsulluq şöbəsinə göndəriləcək. Sertifikat diplomatik nümayəndəliyə/konsulluq şöbəsinə daxil olduqdan sonra həmin sertifikat üçün müraciət edən qeyri-rezident elektron imzasını götürmək üçün diplomatik nümayəndəliyə dəvət edilir .